# Bakı qəzasında türk-müsəlman əhaliyə qarşı soyqırımı



***1917-ci ilin fevral inqilabından sonra Bakı sinfi mübarizənin və hakimiyyət uğrunda çarpışmaların mərkəzinə çevrilmişdi. Bu dövrdə Bakı bolşeviklərinin tərkibində ermənilərin çoxluq təşkil etməsi, sonralar Azərbaycanın türk-müsəlman əhalisi üçün ağır nəticələr verdi. Bakıda "Daşnaksütyun" partiyası və Erməni Milli Şurasına tabe olan yaxşı silahlanmış hərbi dəstələr yerləşdirilmişdi. Onlara keçmiş rus ordusundan xeyli silah-sursat qalmışdı. Eyni zamanda, kifayət qədər pul vəsaitinə malik olan Erməni Milli Şurası tərxis olunan rus əsgərlərindən çoxlu tüfəng almışdı.***

1917-ci il 25 oktyabr çevrilişinədək Bakıda bir neçə min silahlı erməni əsgər və zabiti var idi ki, onlar buraya cəbhənin müxtəlif yerlərindən gəlmişdilər və Zaqafqaziyada təşkil edilmiş erməni korpusunu komplektləşdirmək üçün saxlanmışdılar. Mart soyqırımı ərəfəsində erməni milli hərbi hissələri Q.Korqanovun yaratmağa başladığı silahlı qüvvələrlə birləşdilər. Bu zaman Qırmızı ordunun qərargah rəisi, çar ordusunun keçmiş polkovniki, "Daşnaksütyun" partiyasının üzvü Z.Avetisov idi.

Mart qırğını ərəfəsində bolşevik Avakyan, vəziyyətindən və vəzifəsindən asılı olmayaraq, bütün ermənilərə silah-sursat paylayırdı. Ermənilər artıq bir neçə ay idi ki, ciddi silahlanırdılar. Bütün bunlar, S.Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin iştirakı ilə baş verirdi. Müxtəlif siyasi firqələr ətrafında birləşən Azərbaycandakı ruslar "Müsavat"ın yaratdığı hərəkat qarşısında daxili mübahisə və mübarizələrini unudaraq, "Müsavat"a qarşı vahid cəbhədə birləşdilər. 1918-ci il martın 15-də S.Şaumyan deyirdi: "Bizim siyasətimiz – vətəndaş müharibəsidir. Kim bu siyasətin əleyhinə gedirsə, bizim düşmənimizdir".

S.Şaumyan erməniləri və rus əsgərlərini, xüsusilə, Xəzər Hərbi Dəniz Donanması matroslarını türk-müsəlman əhaliyə qarşı təhrik etməyə başlamışdı. Erməni əhalisinin bütün siniflərinin nümayəndələri bu müharibədə iştirak etməyi özlərinə "borc" bilirdi. Bütün bunlar azmış kimi, S.Şaumyan Moskvadan hərbi kömək almaq üçün müraciət etmişdi. S.Şaumyan Stalinə məktub yazaraq xahiş edirdi ki, Qafqaz qırmızı ordusunu (erməni ordusunu) təşkil etmək üçün təcili olaraq on milyon manat (rubl) ayırsınlar.

RSFSR Xalq Komissarları Soveti 1917-ci ilin dekabr ayında Bakı Sovetinə 500 min rubl, 1918-ci ilin birinci rübündə isə Bakıya 30,8 milyon rubl göndərmişdi. Həmin ilin martında Moskva Hərbi Dairəsinin komandanlığı Bakıya hərbi dəstə, 2 təyyarə (aeroplan), 5 min silah göndərilməsinə göstəriş vermişdi.

Ermənilərdən fərqli olaraq, Bakıda türk-müsəlman əhalinin hərbi təşkilatı və sursatı, demək olar ki, yox dərəcəsində idi. Belə olan halda, təbiidir ki, mübarizədə müsəlmanların qalib gəlməsi mümkün deyildi. Bunu yaxşı başa düşən S.Şaumyan, "Daşnaksütyun" və Erməni Milli Şurası Bakı şəhərində qabaqcadan planlaşdırılan və xüsusi hazırlıq görülmüş dəhşətli qırğınlara, qarətlərə başladılar. Bütün faciələr türk-müsəlmanların yaşadığı məhəllələrdə baş verirdi. Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində qeyd olunur ki, Erməni Milli Komitəsinin hərbi drujinası adlandırılan, Yeqişa Paxlavuninin rəhbərlik etdiyi erməni silahlı dəstəsi müsəlmanların yaşadığı ərazilərə atəş açmağa başlamışdı. Demək olar ki, eyni vaxtda Levon Saatsazbekovun erməni dəstəsi şəhərin "Şamaxinka" adlanan hissəsini atəşə tutdu.

Bir çox müsəlman məhəllələri məhv edildikdən sonra, martın 31-də axşamüstü İçərişəhərin alınması əməliyyatı başlandı. Bu qırğın əməliyyatında N.Anançenko başda olmaqla, Suren Şaumyan (Stepan Şaumyanın oğlu), Ovçiyan, Qalstyan, Sarkis, Qaber-Kori, Artak, Manuçarov, Akopov və başqa "qırmızı qvardiyaçılar" fəal iştirak etdilər. Müsəlman meyitlərinin yandırılması və iyrənc formada təhqir edilməsinin erməni ziyalıları və kilsə xadimləri tərəfindən törədildiyini təsdiq edən onlarca sənəd mövcuddur.

1917-ci ildən bolşevik partiyasının üzvü olmuş Bülyumin xatirəsində yazırdı ki, 1918-ci ilin mart hadisələrində bolşeviklərin silahlı qüvvələri olmadığından daşnak dəstələrindən istifadə edilib. Lakin daşnak dəstələri öz alçaq işlərini həyata keçirdilər. Vətəndaş müharibəsi əvəzinə milli qırğın törətdilər, 20 minə qədər müsəlmanı qətlə yetirdilər. Rusların Xəzər dənizində olan hərbi donanması ermənilərin fitvasına uyaraq, şəhərin müsəlmanların sıx yaşadığı məhəllələrini top atəşinə tutdular. Bu atəş nəticəsində müsəlmanların əsas ibadət yeri sayılan "Təzə Pir" məscidinin minarələri ağır zədə aldı. Erməni daşnakları bolşevik bayrağı altında, əlverişli mövqedən istifadə edərək, əvvəlcədən hazırladıqları plana uyğun olaraq, Bakı şəhərində 1918-ci il martın 30-dan aprelin 1-nə kimi, üç gün ərzində türk xalqına qarşı qırğın törətdilər ki, bu da minlərlə insanın ölümü ilə nəticələndi. Ermənilərin biz bolşevik, sosialist bilmərik, müsəlmansan kifayətdir, deyə hətta müsəlman sosialistlərini də qətlə yetirmələri bir daha onu göstərir ki, onların əsas planı türk-müsəlman əhalini daha çox qırmaq, qorxutmaq və öz doğma torpaqlarından qovmaq olmuşdur.

Erməni silahlı dəstələrinin rəisi Tatevos Əmirov Bakıda, eləcə də Azərbaycanın başqa bölgələrində türk-müsəlman əhalinin amansızcasına qətlə yetirilməsinə, onların evlərinin qarət olunmasına bilavasitə, rəhbərlik edənlərdən biri olmuşdur. Tatevos Əmirovun qardaşı Arsen Əmiryan isə Bakı Xalq Komissarları Sovetinin tərkibinə daxil idi. Müsəlmanları qırıb-çatmaqla yanaşı, ermənilər onların əmlaklarını da məhv edir, az-çox qiymətli olan şeyləri isə özləri ilə aparırdılar. Sonralar təkcə bir yerdə torpağın altından 57 müsəlman qadın və qızın meyiti tapılmışdır. Onların qulaqlarını, burunlarını kəsmiş, qarınlarını yırtmışdılar. Fövqəladə Təhqiqat Komissiyasının (FTK) şahid ifadələri əsasında hazırladığı sənədlərdə, 1918-ci ilin martında, yalnız Bakı şəhərində, Bakı Sovetinin sərəncamında olan erməni silahlı dəstələrinin 12 mindən çox günahsız türk-müsəlman əhalini qətlə yetirdikləri göstərilmişdir.

Bakı şəhərində Bakı Sovetinin erməni-rus bolşevik qüvvələri türk-müsəlman əhaliyə qarşı qanlı qırğınlar zamanı ictimai və şəxsi binalara da çox böyük ziyan dəymişdir. Belə ki, "Açıq söz" və "Kaspi" qəzetlərinin redaksiyaları yandırılmış, Bakıda ən iri məscid bombalanmışdı. Bakıda "İsmailiyyə" Xeyriyyə Cəmiyyətinin binası Şirvanşahlar Sarayı ansamblına daxil olan XIV əsrdə tikilmiş Keyqubad məscidi yandırılıb külə döndərilmişdi. 1918-ci il noyabrın 22-də FTK üzvləri Məmməd xan Təkinski ilə A.E.Kluqenin birgə tərtib etdikləri protokolda göstərilir ki, Azərbaycan – Türk ordusunun Bakı şəhərinə daxil olması ilə Fövqəladə Təhqiqat Komissiyasının sədri Ələkbər bəy Xasməmmədovun tapşırığı əsasında, komissiyanın üzvü Mirzə Cavad Axundzadə fotoqraf Litvinovun köməyi ilə Bakıda görkəmli ictimai və müsəlmanların şəxsi binalarının şəklini çəkdirmişdi. Şəhərin bütün qeyri – türk hissəsi mart qırğını başlanan kimi sinfi fərq qoymadan xristianlıq zəminində müsəlman-türk əhalisinə qarşı birləşmişdi. Erməni ordusunun hissələri, özlərini bolşevik, menşevik adlandıranların hamısı bu işdə iştirak edirdilər.

1918-ci il aprelin 28-də bolşevik Ter-Qabrielyan Həştərxandan Şaumyana yazdığı məktubunda qeyd edirdi ki, hazırda Bakıdan kütləvi surətdə gələn rusların sosial vəziyyətindən asılı olmayaraq, hər hansı birindən Bakıda Sovet mübarizəsi haqqında soruşduqda, hamısı bir səslə deyir ki, Bakıda erməni-tatar qırğını gedir və qırğın ermənilər tərəfindən törədilib. Erməni Milli Şurasının orqanı olan və Bakıda çap olunan "Naşa vremya" qəzeti yazırdı ki, Bakı şəhərində müsəlman əhalisinə qarşı ayrı-ayrı erməni qrupları tərəfindən edilmiş vəhşilikləri heç kim inkar edə bilməz.

Beləliklə, 1918-ci ilin mart-aprel aylarında ermənilərin Bakıda azərbaycanlılara qarşı həyata keçirmiş olduqları soyqırımı siyasətinin əsl mahiyyəti arxiv sənədləri və elmi-tədqiqat materiallarından istifadə etməklə aydınlaşmış olur.

Ermənilər Bakıda qurulan bolşevik-daşnak rejiminin himayəsindən istifadə edərək, azərbaycanlılara qarşı öz məkrli siyasətlərini həyata keçirməyə çalışmışdılar. Bu siyasət nəticəsində minlərlə dinc azərbaycanlı qətlə yetirilmiş, onların evləri qarət olunub yandırılmış, mədəniyyət abidələri vəhşicəsinə dağıdılmışdı.

Hazırda Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi, bir milyon qaçqının acınacaqlı vəziyyətdə yaşaması və bütün bu hadisələrə ABŞ və Qərb dövlətlərinin göz yumması, yaxud xristian təəssübkeşliyi ilə erməni mövqeyini müdafiə etmələri, eləcə də BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin (822, 853, 874, 884) ermənilər tərəfindən yerinə yetirilməməsi, ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi, bir daha onu göstərir ki, dünyada xristian həmrəyliyi hələ də qalmaqda və Cənubi Qafqazda erməni dövləti müdafiə olunmaqdadır.

***Vaqif ABIŞOV,***
***AMEA Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru***